Əhədova Aygün[58]

## "ƏLAVƏ ALƏT" SİNFİNDƏ FORTEPİANO DƏRSLƏRİNDƏ POLİFONİK ƏSƏRLƏR ÜZƏRİNDƏ İŞ

Pedaqoji Universitetin "musiqi müəllimliyi" ixtisasına qəbul olunan tələbələrin sırasında müxtəlif alətlərdə (qarmon, tar, saz, kamança, skripka və s.) təhsil alanlar vardır. Bunlar fortepiano ifaçılığını "əlavə alət" sinfində öyrənirlər. Fortepiano ifaçılığı sənətinin tədrisinin vacib hissəsini polifonik əsərlər üzərində iş təşkil edir. Buna görə hər bir piano ifaçısına inkişaf etmiş polifonik təfəkkürə malik olma çox vacibdir. Polifonik eşitmə qabiliyyətinin və polifonik təfəkkürün inkişafi tələbələrin musiqi mədəniyyətinin tərbiyəsi üçün çox vacib bir məqamdır. Polifonik parçanı eşitmək, polifonik əsərləri ifa etmək bacarığı bütün tədris boyu inkişaf etdirilir və dərinləşdirilir. Əgər tələbəyə tədirisin ilk günlərindən düzgün pianistik vərdişləri aşılanırsa, bu zaman polifonik repertuar da şüurlu şəkildə qavranılır və ifa olunur. Məlum olduğu kimi, polifoniya – çoxsəslilik növüdür ki, burada iki və ya daha çox bərabər hüquqlu melodiyanın eynizamanda uyğun şəkildə səslənməsi baş verir. Deməli, polifoniyanın öyrənilməsi polifonik musiqinin ən vacib komponentlərindən olan melodiyanın qavranılması bacarığından və ifasından başlanmalıdır. Bu vəzifənin yerinə yetirilməsinə hələ ilk dərslərdən başlamaq lazımdır.

Ali məktəbdə tədrisin ilk günlərindən tələbələr müxtəlif bəstəkarların (Azərbaycan, Qərb, rus) polifonik elementləri mövcud olan pyeslərini ifa edirlər. Əsas aləti fortepiano olmayan tələbələr üçün belə əsərlərdən başlmaq daha yaxşı olar, çünki mürəkkəb polifonik əsərlərin ifası onlar üçün ilkin mərhələdə çətin olar. Bu pyeslərdə polifoniya əsasən səsaltı şəkildə, bəzilərində isə imitasiya elementlərilə özünü birüzə verir. Belə əsərlər üzərində iş nəticəsində tələbələrdə lazımi vərdişlər toplanır ki, bunlar sonrakı semestrlərdə daha mürəkkəb imitasiyalı polifoniyanın öyrənilməsinə (məsələn, Y.S.Baxın polifonik əsərlərinə) keçməyə imkan yaradır.

İlkin mərhələdə polifonik material əsasən səsaltı üslubda işlənmiş asan xalq mahnılarından ibarət olur. Yaxşı olar ki, müəllim bu mahnıların xalq tərəfindən necə ifa olunduğu barəsində qısa məlumat versin. Məsələn, dərsdə səsaltı polifoniya üzərində işləyərkən müəllim tələbəyə pyesi "xor" üslubunda, rolları paylaşdıraraq ifa etməyi təklif edə bilər: tələbə solistin partiyasını çalır, müəllim isə obiri royalda "xoru" təsvir edir. İki dərsdən sonra rollar dəyişir. Müəllimlə birgə ansamblda növbə ilə hər iki partiyanı ifa edərkən tələbə nəinki onların hər birinin müstəqil həyatını hiss edir, həm də hər iki səsin eynizamanda səsləndirilməsi ilə bütün pyesi tamlıqla eşidir. Eyniylə imitasiyanı da tələbələrə obrazlı şəkildə "əks səda" tipli izah oluna bilər. Bu onlarda xoş assosiasiyalar yaradar, həmçinin imitasiyanın qavranılmasını canlandırmaq üçün ansablda ifa kömək edə bilər: melodiyanı tələbə çalır, onun imitasiyasını (əks sədasını) isə müəllim ifa edir. sonra rollar dəyişir.

Polifoniyanın mənimsənilməsinin ilk günlərindən tələbəni həm səslərin növbə ilə girişini aydın şəkildə ifadəsinə, həm də onların səlis, dəqiq keçirilməsinə və bitirməsinə alışdırmaq gərəkdir. Fikir vermək lazımdır ki, bir səsdə motivin sonluğu digər səsin girişi ilə batırılmasın. Hər dərsdə hər bir səsdə ayrıayrılıqda kontrastlı dinamik təcəssümə və müxtəlif tembrlərə nail olmaq lazımdır. Məsələn, bir səsi bərk, digər səsi isə sakit çalırıq – "əks səda" kimi.

Polifoniyanın mənimsənilməsinin yeni, daha mürəkkəb və labüd mərhələsi kimi böyük polifonist-bəstəkar Y.S.Baxın əsərlərinin öyrənilməsi çıxış edir. Məlumdur ki, Baxın əsərlərinin tədrisi fortepiano pedaqogikasının ən çətin məqamlarındandır. Əfsuslar olsun ki, çox vaxt tələbələr Y.S.Baxın polifonik musiqisinə quru, darıxdırıcı və maraqsız musiqi kimi baxırlar. Onları Baxın musiqisinin zəngin daxili aləmini və emosional məzmununu anlamağı və sevməyi öyrətmək – fortepiano sinfinin (əlavə alət) müəlliminin ən vacib vəzivələrindən biridir.

"Əlavə alət" sinfində tələbələri Baxın asan polifonik əsərləri ilə tanışlığını "Y.S. Baxın nor dəftəri" adlı toplusundan başlamaq gərəkdir ki, bu tələbənin polifonik təfəkkürünü, səs palitrasını inkişaf etdirən, üslub və forma hissiyatını tərbiyə edən çox qiymətli materialdır. Bu topluya daxil olan kiçik şedevrlər əsasən az həcmli rəqsvari pyeslərdir: polonez, menuet və marşlar. Onlar melodiyanın və ritmlərin heyrətamiz zənginliyi ilə, eləcə də burada əks olunmuş müxtəlif rəngarəng əhval-ruhiyyələri ilə fərqlənirlər.

Yaxşı olar ki, müəllim maraqlı və obrazlı şəkildə tələbəyə qədimi rəqslər barəsində (menuet, polonez) məlumat versin: XVII əsrin sonunda menuet təntənəli saray mərasimlərində ifa olunurdu, lakin VIII əsrdə o, kübar cəmiyyətdə dəbdə olan bir rəqsə çevrildi. Bu rəqsi pudralanmış patiklərdə kübar saray adamları ara-sıra baş əyərək (reverans) böyük təntənə ilə ifa edirdi. Buna uyğun olaraq menuetin musiqisi öz melodik quruluşunda baş əymələrin, reveransların axıcılığı və sürəkliyini əks etdirir. Sözsüz ki, Y.S.Bax öz menuetlərini rəqslər üçün bəstələməmişdir, lakin onlardan bəhrələnərək, rəqs ritm və formasını istifadə etmiş, bu pyesləri müxtəlif əhval-ruhiyyə ilə doldurmuşdur.

İşin ilkin mərhələsində pyesin xarakterini anlamaq lazımdır. Onun əhval-ruhiyyəsini müəyyənləşdirəndən sonra müəllim tələbənin diqqətini üst və alt səslərin melodiyasının fərqliliyinə, onların müstəqilliyinə yönəldir, elə bil iki müxtəlif alət ifa edir. Sonra frazirovkanın və onunla bağlı hər səsin ayrı-ayrılıqda artikulyasiyasının göstərilməsinə keçir.

Polifonik əsərlərin öyrənilməsində həll olunan bir çox məsələlərdən ən vacibi intonasiya ifadəliliyi, axıcılıq və hər səsin müstəqilliyi üzərində işdir. Səslərin müstəqilliyi – mütləq tələbdir ki, istənilən polifonik əsərin ifasına verilir. Buna görə tələbəyə bu müstəqilliyin məhz nədə ifadə olduğunu göstərmək vacibdir:

- səsaparıcılığının müxtəlif xarakterində ("instrumentovka");
- demək olar ki, heç bir yerdə üst-üstə düşməyən müxtəlif frazirovkada;
- üst-üstə düşməyən ştrixlərdə, məsələn, yuxarı səsdə – *legato*, aşağı səsdə isə – non legato;

[58] **ADPU**

- hər iki səsdə üst-üstə düşməyən kulminasiyalarda;
- səslərin müxtəlif ritmik şəklində, məsələn, aşağı səsdə – çərək və yarım notlar, yuxarı səsdə isə – səkkizliklər;
- dinamik inkişafın üst-üstə düşməməsində, məsələn, yuxarı səsdə – *crescendo*, aşağı səsdə isə – *diminuendo*.

Tələbə əsəri artıq yaxşı öyrənib çalandan sonra da hər bir səs üzərində iş dayanmamalıdır, çünki əks halda səsaparıcılığı tez bir zamanda itib-batır.

“Y.S. Baxın nor dəftəri”-ndən iki-üç pyesin materialı əsasında tələbə Bax musiqisinin müxtəlif cəhətlərini mənimsəyir, “səkkizlik” prinsipi və Baxın melodik dilinin çox vacib bir xüsusiyyəti ilə tanış olur. Bu xüsusiyyət ondan ibarətdir ki, Baxda motivlər xanənin zəif hissəsində başlayıb, güclü hissəsində bitir. Buna görə motivlərin sərhədləri Baxda xanənin sərhədləri ilə üst-üstə düşmür və onun əsərlərində aksentlər (vurğular) metrlə yox, mövzunun, motivin daxili mənası ilə müəyyən olunur. “Y.S. Baxın nor dəftəri”, “Kiçik prelüdiya və fuqalar”, sonralar isə 15 ikisəsli və 15 üçsəsli invensiya və simfoniyaların və sair bu qəbildən olan toplularının tədrisi əhəmiyyəti çox böyükdür.

Y.S.Baxın “İnvensiya və simfoniyalar” toplusu obrazlarının bədiiliyi və polifonik ustalığı sayəsində çox qiymətli material kimi çıxış edir. Əlavə alət (fortepiano) sinfində bu toplu pedaqoji repertuarın vacib hissəsidir. Baxın invensiyaları polifonik musiqisinin əsl şedevrləridir. Onlar formanın tənasübliyi, yüksək polifonik ustalığı, dərin mənası, fantaziyanın zənginliyi və janr çalarlarının müxtəlifliyi ilə fərqlənirlər.

Tələbə müəllimin ifasında pyeslə tanış olduqdan sonra onun məzmununun araşdırılmasına keçmək lazımdır.

Tələbə ilə birgə mövzunun sərhədləri və xarakteri müəyyənləşdirilir. Baxın invensiyalarında mövzu – bütün əsərin mərkəzi, nüvəsidir və məhz o, və onda baş verən sonrakı dəyişikliklər və inkişaf bütün əsərin xarakterini və obraz sahəsini müəyyənləşdirir. Təkrar ifa zamanı pyesin formasını müəyyənləşdirib dərk etmək lazımdır. Tələbə invensiyanın quruluşunu aydın şəkildə təsəvvür etdikdən sonra hər bir səsin xətti üzərində işə keçmək olar. Səslərin öyrənilməsi zamanı düzgün ştrixlər, applikatura və dinamikaya fikir vermək lazımdır.

Hər bir səsin melodik xətti üzərində işləyərkən, tələbə diqqətlə uzun notları dinləməli, obiri səslərin təbii şəkildə bundan çıxdığını anlamalıdır. Tələbənin işini istiqamətləndirərkən, onun diqqətini invensiyada üç mövzunun birgə səslənməsində cəmləyərək, onların sanki bir-birilə söhbət etdiklərini və hər bir səsin özünə məxsus fikrinin olduğunu qeyd etmək olar. Hər bir səs öz “siması”, xarakteri və boyasına malikdir. Tələbə düzgün tuşeyə nail olmalıdır: yuxarı səsdə daha cingiltili, açıq səslənməyə; bir qədər tutqun səslənməyə orta səsdə və daha qatı, əsaslı, nəcib və mötəbər səslənməyə basda. Səslər üzərində iş incəliklə əsaslı surətdə aparılmalıdır. Səslərin keifiyyətinin bilməsindən sonrakı işdə çox məqamlar asılı olacaqdır. Tələbə bütöv səslənməni daima təsəvvür etməsi üçün vacibdir ki, o pyesi daima bütöv, üçsəsli şəkildə müəllimin ifasında eşitsin. Burada ansamblda ifa çox faidalı ola bilər: tələbə hansısa bir səsi, müəllim isə digər iki səsi birgə çalırlar.

Öz əlyazmalarında Bax sadəcə notları və melizmləri qeyd etmişdir, lakin dinamika, temp, frazirovka, applikatura, melizmlərin açıqlanmasına dair heç bir göstərişlər verməmişdir. Bunlar barəsində məlumatı tələbəyə bilavasitə dərslərdə vermək lazımdır. Artikulyasiya – qədim musiqinin ifadəli səslənməsinin ən vacib şərtlərindən biridir. İş əsnasında buna böyük diqqət yetirilməlidir. Tələbəyə başa salınmalıdır ki, melodiyanın düzgün şəkildə motivlərə bölünməsinə və onların düzgün itonasiya olunmasına Y.S.Baxın dövründə böyük əhəmiyyət verilirdi. Həmçinin tələbə yadda saxlamalıdır ki, bəstəkarın musiqisində motivlər xanənin zəif vəznindən başlanır. Burada onu da qeyd etməliyik ki, redaktor tərəfindən və ya nadir hallarda Y.S. Baxın özü tərəfindən qoyulmuş qısa liqalar motivlərin sərhədlərini göstərdiyi halda heç də hər zaman əlin qalxmasına (çıxarılmasına) işarə deyil.

Artikulyasiya məsələlərini öz vaxtında hələ professor İ.A.Braudo dərindən və bütün incəliklə öyrənmişdir. Əlyazmaları və Baxın əsərlərinin ifaçılıq təcrübəsinin qanunauyğunluqlarını tədqiq edərək, o, iki artikulyasiya qaydasını çıxarmışdı: səkkizlik qaydası və fanfara qaydası. İ.A.Braudo fikir vermişdi ki, Bax invensiyalarının parçası əsasən qonşu ritmik uzunluqlardan ibarətdir. Bundan o belə nəticə çıxarmışdır ki, Baxın əsərlərində əgər bir səs çərəklərlə, digəri isə səkkizliklərlə verilibsə, bu halda çərək notlar da sanki bölünmüş, səkkizliklər isə əksinə birləşmiş artikulyasiya ilə ifa olunur. Bu elə səkkizlik qaydasıdır. Fanafara qaydasının məğzi isə aşağıdakıdan ibarətdir: səsi daxilində melodiya gah tədricən, gah da sıçrayışlarla hərəkət edir; və əgər melodiyada sıçrayış böyük intervala olsa – sıçrayışın səsləri başqa artikulyasiya ilə çalınmalıdır.

Bax musiqisinə müxtəlif ştrixlər xarakterikdir: *legato,* xüsusilə də ayrılmış, yəni hər tonun aydın şəkildə ifadəsilə; *non legato, portamento, staccato*. Dinamika cəhətdən Bax musiqisinin əsas ifa xüsusiyyəti bundadır ki, onun əsərlərində ala-bula, qarışıq nüanslara yer yoxdur. Y.S.Baxın əsərlərində dinamika barəsində düşünərkən unutmaq olmaz ki, onun yaşadığı Barokko dövrünün musiqisinə kontrastlı dinamika və uzun dinamik xəttlər xasdır. F.Buzoni və A.Şveytser bunu “terrasavari dinamika” (yəni sanki bir birinin üstündə yerləşən) adlandırmışlar. “Çəngəlcik” adlandırılan qısa *crescendo* və *diminuendo*-lar Baxın yazılış üslubunun gözəlliyini və casarətli sadəliyini pozur.

Templərə gəldikdə isə, Baxın dövründə bütün cəld templər müasirlərdən daha asta, ağır templər isə daha cəld idi. Müəllifin öz qeydləri istisna olmaqla, əsərlərdə, adətən, eyni bir temp gözlənilməlidir. Pedallaşma da böyük ehtiyyatla aparılmalıdır. Pedaldan istifadəni yalnız melodik xəttin bir-birinə bağlanması üçün əllərin imkanı olmadığı halda və kadensiyalarda məsləhət bilmək olar.

Bax musiqisinin çox böyük ifadəlilik vasitəsi kimi müxtəlif bəzəklər – melizmlər çıxış edir. Bu problem ətrafında çoxlu mübahisələr aparılır. Özünün “Vilhelm Fridemanın not dəftəri” adlı toplusunda Bax bir sıra bəzəklərin açıqlamasını vermişdi.

İşin növbəti mərhələsi – tələbə tərəfindən səslərin birləşdirilməsi. Əvvəl iki səsi birləşdirmək, sonradan isə üçüncü səsi əlavə etmək olar. Burada tələbə üçün ən böyük çətinlik – bir əldə iki səsin cəmləşməsi çıxış edir. Tələbə

invensiyanı bütövlükdə ifa etdikdə, işə yeni musiqi vəzifələri daxil olur. Onlardan biri – bütün səslərin birgə səsləndirilməsi zamanı düzgün əlaqənin, nisbətin axtarılıb tapılması. İşin sonuncu mərhələsində invensiyanı tam, bütövlükdə ifası vaxt baxımından daha çox diqqət tələb edir. Bu mərhələdə əsas məsələni musiqinin məzmununun, onun xarakterinin düzgün ifadəsi təşkil edir.

Y.S.Baxın invensiyaları üzərində iş tələbəyə bəstəkarın bədii-musiqili obrazlarının dərinliyini, məzmununu dərk etməyə kömək edir. Üçsəsli invensiyaların öyrənilməsi tələbələrə polifonik musiqiyə dair ifaçılıq vərdişlərinin əldə olunması, eləcədə ümumiyyətlə pianoçuluq hazırlığını təmin edir. Fortepiano musiqi ədəbiyyatına bütövlükdə səslənmə palitrasının rəngərəngliyi və çoxcəhətliliyi səciyyəvidir. İnvensiyalar üzərində işin əhəmiyyətli rolu tələbənin tembr cəhətdən eşitmə qabiliyyətinin inkişafında xüsusliə qeyd olunmalıdır.

Beləliklə, müxtəlif hazırlıq səviyyəsi olan tələbələrlə iş vaxtı müəllimin qarşısında hər zaman ciddi vəzifə durur: polifonik musiqini sevməyi, onu anlamağı və onun üzərində həvəslə işləməyi öyrətmək. Müəllim unutmamalıdır ki, polifoniyaya sahib olma tələbələrə nəinki polifonik musiqinin ifa vərdişlərinə, həm də ümumilikdə pianoçuluq texnikasına yiyələnməyə kömək edir.

**ƏDƏBİYYAT:**

1. M.R.Dadaşeva. Musiqi müəlliminin hazırlığının metodikası. Bakı, 2010
2. Калинина Н. Клавирная музыка Баха в фортепианном классе. Л., 1974.
3. Н.Любомудрова. Методика обучения игре на фортепиано. Москва, 1982
4. И.А.Браудо. Об органной и клавирной музыке. Л., 1976.
5. А.А.Шмидт-Шкловская. О воспитании пианистических навыков. Санкт-Петербург, 2015

***Açar sözlər:*** *polifonik təfəkkür, eşitmə qabiliyyəti, melodik xətt, melizmlər*

*Ключевые слова: полифоническое мышление, слух, мелодическая линия, мелизмы*

Key words: polyphonic thinking, hearing, melodic line, melisms

**РЕЗЮМЕ:**

**«Работа над полифоническими произведениями на уроках фортепиано в классе "дополнительный инструмент"»**

Среди студентов, поступивших по специальности "учитель музыки" Педагогического университета, есть студенты, обучающиеся на различных инструментах, таких как гармонь, тар, саз, кеманча, скрипка и другие. Они обучаются фортепианному исполнительству в классе «дополнительный инструмент». Важной частью преподавания фортепианного исполнительства является работа над полифоническими произведениями. Воспитание полифонического слуха и полифонического мышления является важнейшим аспектом развития музыкальной культуры студентов.

**SUMMARY:**

**"Work on polyphonic works in piano lessons in the class "additional instrument".**

Among the students enrolled in the specialty "music teacher" of the Pedagogical University are students studying various instruments, such as accordion, tar, saz, kemancha, violin and others. They learn piano performance in the "extra instrument" class. An important part of teaching piano performing is the work on polyphonic works. Raising polyphonic hearing and polyphonic thinking is the most important aspect of the development of students' musical culture.

**RƏYÇİ: dos.S.Abbasova**